*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 noyabr 2015-ci il № 87 (2003) Qiyməti 25 qəpik


# Prezident İlham Əliyev Müdafiə Nazirliyi Hərbi Hava Qüvvələrinin hərbi şəhərciyində yaradılan şəraitlə tanış olub

***Noyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsinin hərbi şəhərciyində yaradılan şəraitlə tanış olub.***

Müdafiə naziri Zakir Həsənov dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Prezident İlham Əliyev hərbi şəhərciyin baş planı ilə tanış oldu. Məlumat verildi ki, ərazidə əsgər yeməkxanası, yataqxanası, anqarlar, təlim-məşq sinfi, tibb məntəqəsi inşa olunub. Hərbi hissənin ərazisində qarovul binası, komanda məntəqəsi, qazanxana, elektrik yarımstansiyası yaradılıb. Burada tikinti işlərinə 2014-cü ilin aprelində başlanılıb. Ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb, əsgər və zabitlərin istirahəti üçün guşələr yaradılıb.





Dövlətimizin başçısı əsgər yeməkxanasında yaradılan şəraitlə tanış oldu.

Sonra Ali Baş Komandan əsgər yataqxanasında oldu. Yataqxananın foyesində ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin əsgər və zabitlərlə görüşlərini əks etdirən fotostend yaradılıb. Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, bütün ərazi tam mühafizə olunur və nəzarətdədir. Quraşdırılan xüsusi kameralar kənar şəxslər əraziyə daxil olarkən həmin istiqamətə yönəlir və avtomatik siqnalizasiya işə düşür. Əsgər yataqxanasında ideoloji, məişət xidməti və yataq otaqları ən müasir səviyyədə qurulub. Yataqxanada əşya anbarları, hamam və digər zəruri otaqlar var.

Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsinin hərbi şəhərciyində yaradılan şərait bir daha təsdiq edir ki, Azərbaycan dövlətinin iqtisadi qüdrəti artdıqca hərbi sahənin daha da müasirləşdirilməsi, əsgər və zabitlərin xidmət şəraitlərinin yaxşılaşdırılması, onların hərbin sirlərinə dərindən yiyələnmələri istiqamətində mühüm layihələr yerinə yetirilir.

Prezident İlham Əliyevə texnika parkı haqqında da məlumat verildi. Buradakı müasir texnikalar döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə qadirdir. Parkda, həmçinin, texnikaya texniki xidmət, təmir və yanacaqdoldurma məntəqələri fəaliyyət göstərir.

Sonra Ali Baş Komandan hərbi hissənin raket anbarına baxdı. Dövlətimizin başçısı S-300 PMU-2 Favorit Zenit Raket Briqadasına baxış keçirdi, şəxsi heyətin praktiki fəaliyyəti və döyüş növbətçiliyi ilə tanış oldu.







Prezident İlham Əliyevə anbar, raketlər və raketlərin döyüş mövqeyinə daşınması üçün nəzərdə tutulan texnikalar barədə də məlumat verildi.

Dövlətimizin başçısı bu il sentyabrın 15-də cəbhənin Ağdam istiqamətində Ermənistanın hərbçilərimiz tərəfindən məhv edilmiş X-55 pilotsuz uçan aparatının qalıqlarına baxdı.

Ali Baş Komandana Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin bir sıra hərbi texnikası barədə məlumat verildi. Bildirildi ki, döyüşün idarəetmə məntəqəsi də ən müasir hərbi avadanlıqla təchiz edilib.

Dövlətimizin başçısı təlim-məşq kompleksi ilə tanış oldu. Kompleksdə döyüş növbətçiliyinin aparılmasının təşkili, şəxsi heyətin döyüş texnikası ilə işləmə səriştələri yoxlanılır.

Sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan raketlərin start mövqeyinə gəldi, burada atıcı qurğulara baxdı.

Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsinin hərbi şəhərciyində görülən işlər ölkəmizin hərbi qüdrətini bir daha nümayiş etdirir. Ümumiyyətlə, son illər ərzində ordumuzun maddi-texniki bazası daha da möhkəmlənib. Son illər ordumuzun qüdrətinin artırılması istiqamətində həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün maddi-texniki təchizat və döyüş qabiliyyəti baxımından Azərbaycan Ordusu nəinki regionun, eləcə də dünyanın ən güclü ordularından biridir. Ordumuz ən müasir silah-sursat, texnika, avadanlıq ilə təchiz edilib. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin əmri ilə istənilən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə qadirdir.

**AZƏRTAC**

## Avropa Siyasi Analiz Mərkəzi: "Azərbaycan - Qafqazın dayağı"

***Vaşinqtonda yerləşən Avropa Siyasi Analiz Mərkəzinin (CEPA) saytında bu təşkilatın aparıcı elmi işçisi, xarici siyasət üzrə ekspert Janusz Buqajskinin "Azərbaycan - Qafqazın dayağı" adlı məqaləsi yayılıb.***

AZƏRTAC xəbər verir ki, məqalədə müəllif hazırda Avropanın və ABŞ-ın müttəfiqlərə ehtiyacının olduğunu bildirir. Azərbaycanın Cənubi Qafqazın ən vacib aktoru olduğunu vurğulayan müəllif ölkəmizin ABŞ-ın beynəlxalq terrorizmə qarşı mübarizəsində iştirak etdiyini xatırladır.

Məqalədə qeyd edilir ki, Azərbaycanın Avropa və Mərkəzi Asiya arasında enerji və nəqliyyat şəbəkələrində artan rolu bu ölkənin Avropanın enerji təchizatının şaxələndirilməsinə kömək etməklə təhlükəsizliyin təmini məsələsində mühüm rol oynadığını göstərir. Bu baxımdan müəllif "Cənub" qaz dəhlizi, xüsusilə TANAP, TAP kimi layihələri qeyd edir və bu layihələrin önəmini diqqətə çatdırır.

Məqalədə Azərbaycanın Dağlıq Qarabağ regionunun və yeddi rayonunun Ermənistan tərəfindən işğal edildiyi, beynəlxalq ictimaiyyətin bu münaqişənin həllinə biganə yanaşmasının rəsmi Bakının narazılığına səbəb olduğu qeyd edilir. Müəllif ABŞ-ın Azərbaycan ilə diplomatik əlaqələrini sıxlaşdırmasının vacib olduğunu diqqətə çatdırır, əks təqdirdə, Vaşinqtonun öz regional tərəfdaşını itirə biləcəyini vurğulayır.

## "Ermənistan AŞPA komitəsinin qəbul etdiyi qətnaməyə görə təşviş içindədir"

***Avropa Şurası Parlament Assambleyasının siyasi məsələlər və demokratiya komitəsinin üzvü Robert Uolter tərəfindən hazırlanmış hesabata və komitənin qəbul etdiyi müvafiq qətnaməyə Ermənistanın isterik münasibəti açıq şəkildə rəsmi Yerevanın xüsusi narahatlığından və təşviş içində olmasından xəbər verir.***

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Ermənistan və Rusiya xarici işlər nazirlərinin birgə mətbuat konfransında səslənən fikirləri şərh edərkən deyib.

H.Hacıyev bildirib ki, bu, Ermənistanın münaqişənin həllinə dair beynəlxalq ictimaiyyətin ədalətli və haqlı mövqeyindən nə dərəcədə qorxmasının daha bir göstəricisidir. O deyib: "Noyabrın 9-da Ermənistan və Rusiya xarici işlər nazirlərinin Yerevanda keçirilmiş birgə mətbuat konfransında həmin hesabat müzakirə mövzusu olub. Biz də mətbuat konfransında münaqişənin həllinə dair BMT Təhlükəsizlik Şurasının (TŞ) müvafiq qətnamələrində (822, 853, 874, 884) təsdiq olunduğu kimi, Ermənistan və Azərbaycan arasında olan razılıq əsasında ATƏT-in Minsk Qrupunun fəaliyyət göstərməsi barədə fikri bölüşürük. Minsk qrupunun həmsədrlərinin mandatına dair 1995-ci il 23 mart tarixli, 52595 saylı ATƏT sənədində də həmsədrlərin öz fəaliyyətlərində BMT TŞ-nin müvafiq qətnamələri (822, 853, 874, 884), BMT Nizamnaməsi və ATƏT-in Budapeşt Sammitinin qərarlarını rəhbər tutmaları və BMT TŞ-nin qətnamələrinin icrası haqqında Şuranın prezidentinə və BMT-nin baş katibinə hesabat vermələri təsbit olunub.

Xarici İşlər Nazirliyi dəfələrlə öz narazılığını bildirib ki, Minsk qrupunun həmsədrləri BMT TŞ tərəfindən ona verilən mandatı hələ doğrultmayıb. İyirmi ildən artıq dövr ərzində ATƏT-in Minsk Qrupu münaqişənin həll edilməsində hər hansı irəliləyişə nail olmayıb. Obrazlı şəkildə desək, Ermənistan silahlı qüvvələrinin bir əsgəri belə işğal olunmuş Azərbaycan ərazilərini tərk etməyib və bir qaçqın və məcburi köçkün öz doğma yurd-yuvasına qayıtmayıb.

Bunun da əsas səbəbi Minsk qrupunun Ermənistanın Azərbaycan ərazilərinin davam edən işğalına münasibətdə barışdırıcı mövqeyidir. Çox təəssüf ki, Ermənistanın dəstəyi ilə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin sülh prosesini inhisara almaq və mövcud status-kvonu olduğu kimi saxlamağa cəhd göstərmələri barədə hələ də güclü qənaət var".

Mətbuat xidmətinin rəhbəri qeyd edib ki, Azərbaycan beynəlxalq təşkilatları və dünya ictimaiyyətini Ermənistanın təcavüzü, ərazilərinin işğalı, zəbt olunmuş torpaqlarında törədilmiş dəhşətli etnik təmizləmə və beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozulması haqqında məlumatlandırmağa dair öz təcrübəsini və fəaliyyətini davam etdirir.

Minsk qrupunun həmsədrləri BMT TŞ-nin qeyd olunan qətnamələrində və həmsədr ölkələrin prezidentlərinin Akvil, Muskoka, Dövil, Los-Kabos və Enniskilen bəyanatlarında təsbit olunduğu kimi, sülh danışıqlarında irəliləyişə nail olmaq üçün səylərini artırmalıdırlar.

Azərbaycan beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini bərpa etmək üçün malik olduğu bütün vasitələrdən istifadə edəcək.

# Döyüş helikopterlərinin uçuş-taktiki təlimləri keçirilib





***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bilavasitə rəhbərliyi ilə Hərbi Hava Qüvvələri döyüş helikopterlərinin uçuş-taktiki təlimləri keçirilib.***

Döyüş atışlı təlimlərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov da iştirak edib.

Təlimlərdə hərbi pilotlar şərti düşmənin müxtəlif obyektlərinin, hərəkət edən və hərəkətsiz zirehli texnikasının, o cümlədən digər hədəflərin aşkarlanması və müəyyən edilməsi üzrə normativ tapşırıqları yerinə yetiriblər.

Eyni zamanda aviasiya texnikasını ehtiyat və əməliyyat aerodromlarına yerdəyişməsi üzrə yerüstü xidmətlərin hazırlıq fəaliyyəti də yoxlanılıb.

Sonra idarə olunan aviasiya raketlərinin tətbiqi ilə müxtəlif hədəflərin məhv edilməsi icra olunub.

Müdafiə naziri tərəfindən verilən tapşırıqlar helikopter ekipajları tərəfindən uğurla icra olunub və döyüş atışlarının nəticələri yüksək qiymətləndirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Müdafiə naziri İsveçrənin ölkəmizdəki səfiri ilə görüşüb

Noyabrın 12-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İsveçrə Konfederasiyasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Filip Ştalder ilə görüşüb.

Görüşdə regiondakı hərbi-siyasi vəziyyət, hərbi sahədə əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Əfqanıstandakı sülhməramlılarımızın bir qrupu Azərbaycana qayıdıb

NATO-nun 2015-ci ilin yanvarından Əfqanıstan İslam Respublikasında həyata keçirdiyi yeni "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasının tərkibində fəaliyyət göstərən Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 21 nəfərdən ibarət qrupu plana uyğun olaraq rotasiya qaydasında Bakıya qayıdıb.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 20 noyabr 2002-ci il tarixdən başlayıb.

Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 94 nəfərdən ibarət hərbi qulluqçusu, 2 hərbi həkimi və 2 mühəndis-istehkam ixtisası üzrə zabiti Əfqanıstandakı missiyada iştirak edir.

## Düşmən itki verərək geri çəkilməyə məcbur edilib

Noyabrın 12-də axşam saatlarında Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-təxribat qrupu qoşunların təmas xəttində mövqelərimizə basqın etməyə cəhd göstərib.

Silahlı Qüvvələrimizin bölmələrinin əvvəlcədən düşməni aşkar etməsi, görülən qabaqlayıcı tədbirlər və qarşı tərəfə vurulan atəş zərbəsindən sonra işğalçılar geri çəkilməyə məcbur edilib.

İlkin məlumata görə, düşmənin diversiya qrupunun 2 üzvü öldürülüb və xeyli sayda yaralıları var.

Silahlı Qüvvələrimizin bölmələri heç bir itki verməyib, əməliyyat şəraiti tam nəzarətimiz altındadır.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***12 noyabr 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 82 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Talış, Tərtər rayonunun Çiləbürt, Yarımca, Qızıloba, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Baş Qərvənd, Şıxlar, Novruzlu, Mərzili, Qaraqaşlı, Şuraabad, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 90 dəfə atəş zərbəsi endirib.

***13 noyabr 2015-ci il***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 105 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Voskevan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı və Quşçu Ayrım kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Talış, Tərtər rayonunun Çiləbürt, Yarımca, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Sarıcalı, Şıxlar, Novruzlu, Mərzili, Qaraqaşlı, Şuraabad, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qaraxanbəyli, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin, Göygöl, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 112 dəfə atəş zərbəsi endirib.

*Əsgərin tribunası*

# Doğmalarımın yanına başıuca qayıdacam

Tuşlayıcı ixtisası da çox məsuliyyətlidir. Çünki hədəfin dəqiq vurulması əsgərin peşəkarlığından asılıdır. Kiçik bir səhv mərmini hədəfdən yayındıra bilər. Ona görə də xidmətimə məsuliyyətlə yanaşıram. Mən tuşlayıcı ixtisasına "N" hərbi hissəsində yiyələnmişəm. Ordu sıralarına çağırılana qədər bu ixtisas haqqında elə bir məlumatım yox idi. Bölgü zamanı topçuların sırasına düşəndə bu, ürəyimcə oldu. Çünki topçulara böyük rəğbətim var idi. Kitablarda onların qəhrəmanlığından çox oxumuşam, filmlərdə onların hünər və cəsarətlərinə çox baxmışam. Taleyim elə gətirdi ki, mən də topçu oldum. Deməli, mən də romanlarda oxuduğum qəhrəmanlardan biri olmalıydım. İstəyimə nail olmaq üçün, təbiidir ki, silahları yaxşı öyrənməliydim, hazırlığımı artırmalıydım. İlk günlərdən məşğələlərdə fəal iştirak etməyə başladım. Hərbi bilikləri öyrənir, döyüş vərdişlərinə yiyələnirdim. Günlər, həftələr keçdikcə səriştəm və bacarığım artırdı. Artilleriya qurğuları haqqında biliklərim zənginləşirdi. Topun taktiki-texniki xüsusiyyətlərini öyrəndikcə çətinliklər gözlərimdə adiləşirdi. Nəzəri dərslər başa çatandan sonra əməli məşğələlər başlandı. Öyrəndiklərimiz sınağa çəkildi. Bu mərhələdən də uğurla keçdik. Lazımi döyüş vərdişlərinə yiyələndik. İrəli atılan hər addım bizi uğurlara yaxınlaşdırırdı. Zabitlər qarşımızda ciddi tələblər qoymuşdular. Mən də tuşlayıcı kimi öz məsuliyyətimi hiss edirdim. Bu hiss, bu duyğu məni daha da ruhlandırırdı. Başlıcası mən reallığı dərk edirdim. Müdriklərdən biri gözəl deyib ki, reallığı dərk etmək qələbənin yarısıdır.



Sınaq atışları da uğurla keçdi. Hədəfləri dəqiq nişan aldım. Hər şey uğurla başa çatdı. Qazanılan nəticələr ürəkaçan idi. Bütün müsbət nəticələr onu göstərdi ki, biz ixtisaslarımızı mükəmməl öyrənmişik.

Kurs başa çatdıqdan sonra xidmətimizi davam etdirmək üçün bizi müxtəlif hərbi hissə və birləşmələrə göndərdilər. Mən də cəbhə bölgəsində xidmət etməli oldum. Bu, məsuliyyətimi ikiqat artırır. İstənilən an düşmən hədəflərini vurmağa hazıram. Təcrübə və biliyimiz nə qədər yüksək olsa da, yenə də təcrübəli zabitlərdən kapitan Ramil Əliyevin və baş leytenant Asim Ağakərimovun rəhbərliyi altında məşq edir, səriştəmizi daha da artırırıq.

Ordu sıralarına Salyan rayonundan çağırılmışam. Evimizdən, ailəmizdən ilk əsgər mənəm. Üzərimə düşən tapşırıqları peşəkarlıqla yerinə yetirərək hər addımda uğur qazanıram. Valideynlərimin, doğmalarımın yanına alnıaçıq, başıuca qayıdacağam.

**Əsgər**
**Rüfət İSGƏNDƏRLİ,**
**"N" hərbi hissəsi**

# Azərbaycan nümayəndəsi erməni nazirin bəyanatına UNESCO tribunasından münasibət bildirib

***UNESCO-nun Baş Konfransının 38-ci sessiyasının ümumi siyasi debatlar çərçivəsində ölkələr milli bəyanatlarını təqdim edib.***

Ermənistanın xarici işlər naziri təqdimat zamanı saxta ittihamlar səsləndirib. Azərbaycan Respublikasının UNESCO yanında daimi nümayəndəliyinin rəhbəri Anar Kərimov cavabvermə hüququndan istifadə edərək erməni nazirin çıxışına münasibət bildirib. O qeyd edib ki, Ermənistan xarici işlər nazirinin verdiyi bəyanatın ölkəmizə qarşı saxta, düşmənçilik və nifrətlə dolu şərhdən ibarət olması cavabvermə hüququndan istifadəyə ehtiyac yaradır.

Anar Kərimov vurğulayıb ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasına dair BMT Təhlükəsizlik Şurası tərəfindən 4 qətnamə qəbul olunub. Buna baxmayaraq Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınan tarixi ərazilərinin 20 faizini işğal altında saxlamaqda davam edir. Bu işğalın nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün həyatı yaşayır.

"Ermənistan nazirinin bu çıxışı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və onun ətrafında 7 rayonda deyil, eləcə də Ermənistan ərazisində olan Azərbaycan mədəni irsinin yer üzündən silinməsi faktlarını gizlədərək beynəlxalq cəmiyyəti çaşdırmaq cəhdini bir daha əks etdirir. Məscidlər, tarixi abidələr, qəbiristanlıqlar, muzeylər kimi mədəni irsimizin məqsədyönlü şəkildə dağıdılması Azərbaycanın bu ərazilərdə tarixi mövcudluğunu silib atmaq məqsədi daşıyır. Ermənistanın Masis rayonunda Ağa Dədə məscidinin və qəbiristanlığının dağıdılması bu ölkənin Azərbaycana qarşı apardığı çoxsaylı dağıdıcı siyasətdən bir nümunədir. Belə dağıdıcı siyasət beynəlxalq hüququn norma və prinsiplərini, eləcə də UNESCO-nun məqsəd və prinsiplərini birbaşa pozur", - deyə Anar Kərimov bildirib.

O, həmçinin vurğulayıb ki, işğalın çoxsaylı ağır nəticələrindən əziyyət çəkən ölkə olaraq mədəni irsin qorunması Azərbaycan üçün həmişə ən əhəmiyyətli və həssas məsələlərdən biri olub və olmaqdadır. Bu gün Ermənistan mono-etnik bir dövlət olduğu halda, bir çox etnik qrupların və dini icmaların məkanı olan Azərbaycan dini və milli tolerantlıq sahəsində konkret və səmərəli siyasət həyata keçirməklə öz təcrübəsini beynəlxalq cəmiyyətlə bölüşür.

A.Kərimov UNESCO-nun sülh və tolerantlıq evi olduğunu diqqətə çatdıraraq bu təşkilatın nifrət hissi və əsassız ittihamlarla beynəlxalq ictimaiyyəti çaşdırmağa yox, yalnız yaxşı və firavan gələcək üçün ədalətli və düzgün həll yollarına çağırdığını deyib.

**AZƏRTAC**

***Məlum olduğu kimi, Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi ordunun şəxsi heyəti arasında "Bayrağımız - milli qürurumuzdur" mövzusunda yazı müsabiqəsi elan etmişdi. Müxtəlif bölgələrdən müsabiqəyə xeyli sayda yazılar göndərilib. Müsabiqə noyabrın 9-da yekunlaşıb.***

***Qeyd edək ki, münsiflər heyəti Gəncə şəhərindən hərbi xidmətə çağırılmış və Əlahiddə Ümumqoşun Ordunun "N" hərbi hissəsində xidmət edən əsgər Bayram İmamyar oğlu İsmayılovun məqaləsini birinci yerə layiq görüb.***

**"Azərbaycan Ordusu"**



# Bayrağımız milli qürurumuzdur

Türk dünyasında vətənpərvər şair kimi tanınan Mithat Camal Kuntay XX əsrin əvvəllərində yazdığı şeirdə bildirdi ki, "Bayraqları bayraq yapan üstündəki al qandır, Toprak, əgər uğrunda ölən varsa, Vətəndir!". Bu gün başımız üzərində dalğalanan, qürur mənbəyimizə çevrilən, müstəqil Azərbaycanın dövlət rəmzlərindən biri sayılan üçrəngli, ay-ulduzlu bayrağımız da insanlarımızın canı-qanı bahasına meydana gəlib, zirvələrə ucalıb. Tarixə qısa ekskurs etsək görərik ki, şah babamız Şah İsmayıl Xətainin at belində qurduğu böyük Səfəvilər dövlətinin süquta uğraması Azərbaycan ərazilərinin xanlıqlara parçalanması, ardınca da İran və Rusiya arasında bölüşdürülməsi ilə müşayiət olunub. Bu bölüşdürmə və işğal xalqımızı pərən-pərən salıb, uzun illər formalaşan dövlətçilik ənənəsini pozub. Həmin dövrün ziyalıları, o cümlədən dünya romantizminin orijinal simalarından olan Məhəmməd Hadi 1908-ci il dekabrın 1-də "İttifaq" qəzetinin birinci sayında çap etdirdiyi "Zümzümati-təhəssürat, yaxud qarışıq xəyallar" adlı şeirində xalqımızın yaşadıqlarını ürək ağrısı ilə qeyd edib: "İmzasını qoymuş miləl övraqi-həyatə, Yox millətimin xətti bu imzalar içində". Bu kimi narahatlıqları yaşayan, millətinin və xalqının gələcəyini düşünən ziyalılarımız yalnız 1918-ci il mayın 28-də Azərbaycan ərazisində Demokratik Cümhuriyyət qurmağa nail oldublar.

Elə həmin il iyunun 24-də Şərqin ilk Respublikasının elan edilməsi yolunda canlarını fəda edən azərbaycanlıların ruhuna, onların tökülən qanlarına hörmət əlaməti olaraq, məhz al qırmızı rəngli, ay-ulduzlu bayraq dövlətimizin rəmzinə çevrilib. Nuru Paşanın rəhbərliyi altında qardaş köməyinə çatan Qafqaz İslam Ordusunun Bakı şəhərini rus-daşnak silahlılarından azad etməsindən bir müddət sonra isə göy, qırmızı, yaşıl zolaqlardan ibarət ay-ulduzlu bayraq Azərbaycan Xalq Cümhuriyyətinin əsas dövlət rəmzi kimi qəbul edilib. Məmməd Əmin Rəsulzadə 1918-ci ildə Azərbaycan Parlamentinin yığıncağında bayraqdakı rənglərin nəyi ehtiva etməsindən danışarkən bildirdi ki, "Bizim qaldırdığımız bayrağın üç rəngi türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoludur". Bu yerdə onu da qeyd etmək yerinə düşər ki, Demokratik Cümhuriyyətin dövlət bayrağındakı üç rəngin ifadə etdiyi və XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipini təşkil edən "Türkçülük, islamçılıq və müasirlik" düsturunun müəllifi görkəmli Azərbaycan mütəfəkkiri Əli bəy Hüseynzadə sayılır.

Əli bəy Hüseynzadənin və Məmməd Əmin Rəsulzadənin fikirlərinin təsdiqi kimi bildirdim ki, bayraqdakı göy rəng Azərbaycan xalqının türk mənşəli olmasını göstərir və bu rəng türkçülük ideyası ilə bağlıdır. Tarixi materiallarda türklərin göy rəngə üstünlük verməsi ilə əlaqədar müxtəlif izahlar mövcuddur. Orta əsrlərdə islam dinində olan türkdilli xalqların yaşadığı ərazilərdə saysız-hesabsız qədim abidələr də tikilib və bu abidələrin əksəriyyəti göy rəngdə olub. Bu baxımdan göy rəng rəmzi məna daşıyır. Göy rəng həm də XIII əsrdə Elxanilər dövrünün əzəmətini, onların zəfər yürüşlərini əks etdirir. Qırmızı rəng müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni, inkişafı ifadə edir. Tarixdən də məlum olduğu kimi, XVIII əsrin sonlarında Fransa burjua inqilabından sonra kapitalizmin inkişafı ilə bağlı Avropa ölkələrində böyük irəliləyişlər baş verib. Həmin dövrdə proletariatın kapitalizm quruluşuna qarşı mübarizəsi olub. Bu illərdə məhz qırmızı rəng Avropanın rəmzinə çevrilmişdi. Yaşıl rəng isə İslam sivilizasiyasına, İslam dininə mənsubluğu ifadə edir. Böyük mütəfəkkir, görkəmli ədib Ə.Hüseynzadənin "Qırmızı qaranlıqlar içində yaşıl işıqlar" əsərində də bayrağımızda yer alan yaşıl rəngin geniş izahı verilib.

Bayrağımızda qırmızı zolağın üzərində əks olunan ağ rəngli aypara və səkkizguşəli ulduza gəlincə, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun direktor müavini, tarixçi-alim Cəbi Bəhramov ayparanı türk xalqlarının simvolu kimi qələmə verib. Səkkizguşəli ulduzun mənasını "Azərbaycan" sözünün əski əlifbada yazılışı ilə əlaqələndirib. Onun sözlərinə görə, əski əlifbada "Azərbaycan" sözü səkkiz hərflə yazılır. Daha bir tarixçi-alim Akif Məmmədli isə bu barədə bildirib ki, M.Ə.Rəsulzadə dövlətin prinsiplərini müəyyənləşdirərkən 8 prinsipə əsaslanıb. Bunlar türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilikdir. Cəfər Cabbarlının "Azərbaycan bayrağına" şeirində də üçrəngli bayrağımız, onun rənglərinin və ay-ulduzun nələri ifadə etməsi barədə maraqlı yanaşma ortaya qoyulub.

Çox təəssüflər olsun ki, qarşısına böyük hədəflər qoyan Azərbaycan Demokratik Cümhuriyyəti o dövrdə cəmi 23 ay varlığını qoruya bildi. 1920-ci ilin 28 aprel tarixində ruslar tərəfindən işğal ediləndən, süquta yetiriləndən sonra dövlət rəmzi sayılan üçrəngli bayraq da dəyişdirildi. Azərbaycan Sovet Sosialist Respublikası elan edildi, 1991-ci ilə kimi bu dövlətin bayrağı 6 dəfə dəyişkənliyə məruz qaldı. Babalarımızın XX əsrin əvvəllərində qurduğu dövlətin əsas rəmzi sayılan üçrəngli, ay-ulduzlu bayraq 70 ildən sonra yalnız ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə bərpa edildi. Belə ki, ulu öndərin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 17 noyabr 1990-cı ildə bu barədə qərar verdi və həmin bayraq Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi. Eyni zamanda Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı. 5 fevral 1991-ci ildə Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxıb və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi. Həmin vaxtdan etibarən bu bayraq Azərbaycan Respublikasının Dövlət bayrağı qəbul edilir, Azərbaycan dövlətinin suverenlik rəmzi kimi tanınır.

Dövlət bayrağından istifadə Azərbaycan Konstitusiyasının 23-cü və 75-ci maddələrində, "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında" qanunu, eləcə də həmin qanuna təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə" əsasında tənzimlənir. Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin 17 noyabr 2009-cu ildə imzaladığı sərəncamla hər il noyabrın 9-u Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur. 2010-cu ilin sentyabrın 1-də isə ölkə başçısının iştirakı ilə Bakı şəhərinin Bayıl qəsəbəsi ərazisində Dövlət Bayrağı Meydanı memorial abidə-istirahət parkı istifadəyə verilib. Hazırda burada 162 metr yüksəklikdə dalğalanan Azərbaycan bayrağı dünyanın ən yüksək bayrağıdır. "Ginnes" Dünya Rekordları Təşkilatı 2010-cu il mayın 29-da Azərbaycan Dövlət Bayrağı Dirəyini dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib. Buradakı meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, Dövlət himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb. Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb.

Təbii ki, bütün bunlar Azərbaycana, onun dövlətinə, xüsusən də bayrağına olan sevgidən, ehtiramdan irəli gəlir. Bayrağımıza olan bu sevgi və ehtiram Azərbaycanın bütün şəhər və rayonlarında, o cümlədən xidmət etdiyim hərbi hissənin yerləşdiyi Naxçıvan Muxtar Respublikasında da hər addımda sezilməkdə, görünməkdədir. İndi ölkəmizin hər bir yaşayış məntəqəsinin mərkəzində üçrəngli, ay-ulduzlu Azərbaycan bayrağı əzəmətlə dalğalanır. Bununla bərabər, Azərbaycanın dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində, o cümlədən beynəlxalq təşkilatlarda ucalır, mühüm tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq müstəqilliyimizi və milli birliyimizi təcəssüm etdirir. Azərbaycan Prezidenti İlham Əliyevin respublikamızın dövlət atributlarına, o cümlədən üçrəngli bayrağımıza göstərdiyi böyük ehtiram, bu məqsədlə həyata keçirilən tədbirlər ölkəmizdə milli həmrəyliyin daha da möhkəmlənməsinə, azərbaycançılıq məfkurəsinə və dövlət rəmzlərinin təbliğinə xidmət edir.

Üçrəngli bayrağımız Azərbaycanımızın müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin, mənəvi dünyasının rəmzidir. Hər bir Azərbaycan vətəndaşı bayrağımıza ehtiram göstərir, bunu özünün müqəddəs borcu kimi qəbul edir. Azərbaycan əsgəri də Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən üçrəngli bayrağa and içir. Bütün Azərbaycan xalqının, o cümlədən biz gənclərin, hərbçilərin yeganə arzusu babalarımızdan bizlərə miras qalan bayrağımızı işğal olunmuş ərazilərimizdə, düşmən üzərində qələbəmizin qeyd edildiyi məkanlarda dalğalandırmaqdır. Biz əsgərlər bu arzunun da tezliklə reallığa çevriləcəyinə qəti şübhə etmirik. Çünki Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə bəyan edib ki, Azərbaycan bayrağı gec-tez Dağlıq Qarabağda, Şuşada, Xankəndidə, Laçında... dalğalanacaq. Ali Baş Komandanımızın sözlərindəki qətiyyəti hiss etdiyimizdən, vüqarımız, qürurumuz olan bayrağımızı işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlarda dalğalandırmaq üçün əmrə müntəzir dayanmışıq.

**Əsgər**
**Bayram İSMAYILOV,**
**"N" hərbi hissəsi**

Ordu və cəmiyyət

# "Hər ailədən orduya bir zabit"

## Müsahibimiz Laçın rayon İcra Hakimiyyətinin başçısı Akif Səlimovdur

***Torpaqlarımız işğalçı Ermənistan tərəfindən hərbi təcavüzlə üzləşəndə Vətənimizin müdafiəsinə atılan cəngavər oğulların sırasında Laçın igidləri də vardı. Onlar dağlardan səngər qurub düşmənlə döyüşürdülər. Akif müəllim də digər soydaşlarımız kimi nankor qonşularımızın xəyanətkar əməllərinə dözməyərək torpaqlarımızın müdafiəsinə qalxmışdı...***

***Vaxtilə uğrunda döyüşdüyü, taleyinə 20 ildən artıq qaçqınlıq yazılan Laçın rayonunun icra başçısıdır Akif müəllim. Onunla söhbətə məni ruhlandıran səbəb "Hər laçınlı ailəsindən orduya bir zabit" layihəsinin reallaşması olmuşdu.***



Ölkəmizin füsunkar guşələrindən biri olan Laçın rayonu Kiçik Qafqazda yerləşir. Relyefi dağlıq olan rayonun dəniz səviyyəsindən hündürlüyü 700 metrdən 3600 metrə qədər dəyişir. Zəngin fauna və floraya malik Laçın rayonu 1992-ci il mayın 18-də erməni təcavüzkarları tərəfindən işğal olunub. Rayonun müdafiəsi uğrunda döyüşlərə atılan oğul və qızlarından 267 nəfəri şəhid, 65 nəfəri isə itkin düşüb. Laçın oğullarından 5 nəfəri Milli Qəhrəman fəxri adına layiq görülüb.

İndi isə müsahibim haqqında. Akif İsmayıl oğlu Səlimov, 1950-ci ildə Laçın rayonunun Qarıqışlaq kəndində doğulub. Əvvəl Azərbaycan Politexnik İnstitutunu (indiki Azərbaycan Texniki Universiteti) sonra isə Volqoqrad Ali İstintaq Məktəbini bitirib. 1990-2006-cı illərdə Laçın, Goranboy, Qax, Cəlilabad rayonlarında polis rəisi vəzifəsində işləyib. İstefada olan polis polkovnikidir. 2013-cü ildən Laçın rayon İcra Hakimiyyətinin başçısıdır.

***- Akif müəllim, gəlin, söhbətimizə də elə döyüş yolunuzdan körpü salaq. Dağlıq Qarabağ hadisələri başlayanda Laçınla sərhəddə erməni quldur dəstələrinə qarşı uğurlu əməliyyatlar keçirən, zamanında haqqında əfsanələrə bənzər söhbətlər dolaşan Laçın polisinə rəhbərlik etmisiniz.***

- Coğrafi mövqeyinə görə, Dağlıq Qarabağla Ermənistan arasında yerləşən Laçın rayonunun mərd övladları bu ərazini tarix boyu göz bəbəyi kimi qoruyub, Azərbaycan torpaqlarına göz dikən, türk və müsəlman qırğınları törədən ermənilərə həmişə tutarlı cavab veriblər. 1905, 1918, 1920-ci illərdə Xosrov bəy və Sultan bəy qardaşlarının rəhbərliyi altında yurdumuzun qəhrəman övladları Qarabağda erməni təcavüzkarlarına ağır zərbələr endirmişlər. Bu gün laçınlılar haqlı olaraq, böyük qürur hissilə ata-babalarının qəhrəmanlığı qarşısında baş əyir, onların keçdiyi şərəfli döyüş yolunu özlərinə örnək bilirlər. Bildiyimiz kimi, 1988-ci ildən ermənilərin ölkəmizə təcavüzünün növbəti mərhələsi başlandı. Müharibənin ilk günlərindən laçınlılar eyni vaxtda iki cəbhədə - həm Ermənistanın sistemli hücumlarına qarşı, həm də Dağlıq Qarabağdakı separatçı ermənilərlə mübarizə aparmalı oldular. Rayonun yüzlərlə mərd, qorxmaz övladı silaha sarılaraq, düz 4 il düşmənə torpaqlarımıza ayaq basmağa imkan vermədi. Tarix boyu ermənilər Laçını "Qarabağın qara qapısı" adlandırıblar. Laçın həmişə ermənilərin gözündə qorxulu və sehrli bir yer idi. Onlar heç xəyallarına da gətirə bilməzdilər ki, nə vaxtsa Laçın torpağı işğal oluna bilər.




İstər canlı qüvvə, istərsə də texnika cəhətdən güclü olan düşmənə ağır zərbələr endirib torpaqlarımıza ayaq basmasına imkan vermirdik. Hər altı nəferindən biri şəhid olan, hər üç nəferindən biri yaralanan, üç nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülən, dörd nəfəri "Azərbaycan bayrağı", iki nəfəri "Vətən uğrunda" medalı ilə təltif edilən və 50 nəfərə yaxın şəhid verən Laçın polisi şərəf tarixini belə yazdı.

***- Məhz ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan Ordusu modern orduya çevrildi. Bu gün də ordumuzun inkişaf tempi dünya ordularına inteqrasiya yolunu seçərək formalaşdırılır.***

- Bəli, Azərbaycanın ordu quruculuğundan danışılarkən ilk olaraq 1971-ci ildə ümummilli liderimizin yaratdığı C.Naxçıvanski adına hərbi məktəb yada düşür. O, imperiyanın sərt qanunları qarşısında nə qədər çətinliklərlə üzləşdiyini və bu məktəbi doğma övladı tək sevdiyini çıxışlarında dəfələrlə bəyan edirdi. Orduda zabit heyətinin yetişməsində əsas baza rolunu oynayan bu hərbi məktəb müstəqillik dövründə böyük inkişaf yolu keçərək daha da gücləndi. Bu gün müasir Azərbaycan Ordusunun memarı, ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev prioritet məsələ olaraq ordu quruculuğuna böyük diqqət göstərir. Vətənimizin müdafiə qüdrəti gün-gündən artır. Hədəf isə torpaqlarımızın işğaldan azad edilməsi, qaçqın və məcburi köçkün həyatı yaşayan soydaşlarımızın pozulmuş hüquqlarının bərpa edilməsi və doğma ata-baba yurduna qayıtmalarıdır. Biz torpaqlarımızın işğalı ilə heç zaman barışmayacaq, onu azad edənə qədər mübarizəmizi davam etdirəcəyik. Bugünkü Azərbaycan Ordusu torpaqlarımızı qısa müddətdə işğaldan azad etməyə qadirdir. Silahlı Qüvvələrin irimiqyaslı təlimləri ordumuzun hansı gücə malik olduğunu aydın şəkildə nümayiş etdirir. Azərbaycan Ordusu hərbin müasir standartlarına cavab verən bir ordudur və bu orduda müasir texnologiyalar tətbiq olunur.

Sözsüz ki, bütün ölkə vətəndaşları kimi laçınlılar da Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Qarabağ müharibəsinin sülh danışıqları, diplomatik səylərlə həll olunması yolunda qətiyyətli və uzaqgörən siyasətini ürəkdən bəyənir və müdafiə edirlər. Qan tökülməsini, fəlakət və faciələrin baş verməsini, kəndlərin, şəhərlərin dağıdılmasını heç kim istəmir. Ancaq bununla bağlı atəşkəs rejimi də uzun çəkə bilməz. Erməni təcavüzünün qurbanlarından olan Laçın rayonunun əhalisi də sülh danışıqları səmərə vermədiyi təqdirdə, Ali Baş Komandanın əmri ilə işğal altında olan torpaqları azad etmək əzmindədir. Biz laçınlılar Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan sülh danışıqlarında Prezidentin uğurlu siyasətini birmənalı şəkildə bəyənir, eyni zamanda döyüşə hazırlığın başlıca şərt olduğunu da unutmuruq.

***- Silahlı Qüvvələrimizdə aparılan islahatlar, ardıcıl keçirilən genişmiqyaslı hərbi təlimlər barədə keçmiş komandir kimi fikirlərinizi bilmək maraqlı olardı...***

- Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, sentyabrın əvvəllərində ordumuzda - Komanda Qərargah Hərbi Oyunları keçirildi. Ordumuzun güc və qüdrətinə çevrilən bu təlimlər düşmənlərimizdə nə qədər vahimə yaratdısa, bir o qədər də xalqımızın vətənpərvərlik ruhunun yüksəlməsinə səbəb oldu. Təlimlərə 6 min nəfərdən çox hərbi vəzifəlinin ehtiyatdan çağırılması və onların vaxtında təyin edilən məntəqələrə çatdırılması yüksək səviyyədə təşkil edilmişdi. Sevindirici məqamlardan biri o idi ki, hərbi hissələrin qarşısına toplaşan yüzlərlə müharibə veteranı, şəhid ailələri, gənclər nəinki təlimlərə qoşulmaq, həmçinin, işğal altında olan torpaqlar uğrunda müqəddəs döyüşlərə atılmaq üçün ordu sıralarına daxil olmağa tələsirdilər. Əli silah tutan hər bir gənc ordu ilə həmrəyliyini bildirirdi. Müdafiə Nazirliyi rəhbərliyinin tez-tez cəbhə bölgələrində əsgər və zabitlərlə görüşüb söhbətlər aparmasını, hərbi hissələrdə məişət şəraitinin yüksək səviyyədə qurulmasını, xidmətini başa vurub gələn gənclərin müddətdən artıq hərbi qulluğa cəlb edilməsini orduda aparılan islahatların uğurlu nəticəsi kimi dəyərləndirirəm. Bu yaxınlarda hərbi hissələrdə "Açıq qapı" gününün keçirilməsi də ordu ilə xalqın vəhdətinə bariz nümunədir.

***- Akif müəllim, "Hər ailədən orduya bir zabit" vətənpərvərlik layihəsi nə vaxt sizin tərəfinizdən irəli sürülüb və hansı zərurətdən yaranıb?***

- Keçən ilin avqustunda düşmənlə təmas xəttində yaranan gərginlik bu təşəbbüsün nə qədər zəruri bir tələblə bağlı irəli sürüldüyünü, torpaqlarımızın işğaldan azad olunması üçün gənclər arasında vətənpərvərlik ruhunun yüksəldilməsinin çox mühüm vəzifə olduğunu bir daha hər kəsə göstərdi. Onu da əlavə edim ki, bu təşəbbüs mövsümi xarakter daşımır, bir, yaxud bir neçə tədris ilini əhatə etmir. "Hər ailədən orduya bir zabit" təşəbbüsü müqəddəs ata-baba torpaqlarımızın düşmən caynağından azad olunacağı günə qədər, hətta ondan sonra da davam etməlidir. Bu təşəbbüsün Laçın rayonundan irəli sürülməsinin rəmzi mənası var. Qartallar oylağı, igidlər məskəni bu torpağın hamıya nümunə ola biləcək ənənələrini layiqincə yaşatmaq bu gün xüsusilə vacibdir. Heç də təsadüfi deyil ki, həmin təşəbbüs laçınlılar arasında dərhal əks-səda doğurdu. Rayonda bu istiqamətdə ardıcıl və sistemli iş quruldu. Rayonun orta məktəblərində hərbi biliklərə yiyələnmək istiqamətində təhsil proqramının imkanlarından bacarıqla istifadə olunur. Mükəmməl elmi biliyə malik zabit kadrların hazırlanması istiqamətində məqsədyönlü işlər aparılır. Gənclərdə hərbi peşəyə maraq və həvəsi daha da artırmaq üçün məktəblərdə tədrisin səmərəliliyinə ciddi fikir verilir.

Laçın rayon İcra Hakimiyyətinin başçısı təyin edildiyim ilk günlərdən etibarən yeniyetmə və gənclər arasında hərbi vətənpərvərlik hisslərinin gücləndirilməsi və onların ali hərbi məktəblərə istiqamətləndirilməsində fəal təbliğat işinin aparılmasına önəm bildirdim. Və bu yöndə bir sıra təşəbbüslərlə çıxış etdim. Bu təşəbbüslər elə ilk vaxtdan bəhrəsini verdi. Ürəkləri Vətən, torpaq, yurd eşqi ilə döyünən laçınlılar da təşəbbüsümü hamılıqla bəyəndi. Onlar da torpaqlarımızın azad edilməsini və ərazi bütövlüyümüzün qorunmasını övladlarımızın hərb sənətinin sirlərinə dərindən yiyələnməsində gördüklərini bildirirlər.

Vətənpərvərlik təbliğatının təsirli olmasının bir yolu da keçmiş döyüşçülərə diqqət və qayğının artırılmasıdır. Onların problemlərinin həlli, xüsusən işlə təmin olunması üçün hər vasitədən istifadə olunur. Onlara lazımi maddi və mənəvi dəstək verilir, mənzil problemlərinin yaxşılaşdırılması üçün dövlətin imkanlarından istifadə edirik.

Rayonumuzun təhsil müəssisələrində, bir qayda olaraq, vətənpərvərlik mövzusunda geniş söhbətlər aparılır. Qarabağ savaşında igidlik göstərmiş laçınlı döyüşçülərlə ictimaiyyətin və yuxarı sinif şagirdləri ilə hərbi hissələrdə görüşlərini təşkil edirik. Hərbi həyatla tanışlıq istiqamətində müxtəlif formalı tədbirlər gənc nəslin hərbə marağının artmasına təkan verir.

***- Söhbətimizi ənənəvi sualla bitirmək istəyirəm, Azərbaycan Ordusunun əsgər və zabitlərinə sözünüz və arzularınız.***

- Torpaqlarımızın düşmən işğalından azad edilməsində Silahlı Qüvvələrin Ali Baş Komandanının döyüş əmrini ləyaqətlə yerinə yetirmək üçün hər bir əsgər və zabit fədakarlığı həyat amalı kimi qəbul edib, Vətən naminə qəhrəmanlıqlar göstərməlidir.

***- Müsahibəyə görə çox sağ olun.***

**Müsahibəni yazdı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan YUNESKO-nun yardımçı orqanlarına üzv seçilib

***Noyabrın 12-də YUNESKO-nun Baş Konfransının 38-ci sessiyası çərçivəsində bu təşkilatın yardımçı orqanlarına seçkilər keçirilib. Azərbaycan təşkilatın iki yardımçı orqanına - YUNESKO-nun "İnsan və biosfer" proqramı Beynəlxalq Əlaqələndirmə Şurasına (MAB-İCC) və Bədən tərbiyəsi və idman üzrə hökumətlərarası komitəyə (CIGEPS) namizədliyini irəli sürmüşdü. Seçkilərin nəticəsi ölkəmiz üçün müsbət olub və Azərbaycan YUNESKO-nun hər iki yardımçı orqanına üzv seçilib.***

YUNESKO-nun "İnsan və biosfer" proqramı Beynəlxalq Əlaqələndirmə Şurası 34 üzv dövlətdən ibarətdir və ölkələr arasında biosfera sahəsində beynəlxalq əməkdaşlığın əlaqələndirilməsi, biosfer qoruqların mühafizəsi və qorunması ilə bağlı lazımi mexanizmlərin yaradılması ilə məşğuldur. Bu Şuraya üzvlük ölkəmizə dünyada biosfer qoruqlarının mühafizəsinə öz töhfəsini verməyə və Ümumdünya Biosfer Qoruqlar Şəbəkəsinə yeni qoruqlarını daxil etməyə imkan verəcəkdir.

Bədən tərbiyəsi və idman üzrə hökumətlərarası komitə 18 üzv ölkədən ibarətdir və bədən tərbiyəsi və idman sahəsində beynəlxalq səviyyədə əməkdaşlığın gücləndirilməsinə töhfə verir. "Bakı-2015" Birinci Avropa Oyunlarının uğurla keçirilməsi və 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi, eləcə də həm yerli, həm də beynəlxalq səviyyədə bədən tərbiyəsi və idmanın inkişafına göstərdiyi dəstək ölkəmizin bu komitəyə üzv seçilməsində böyük rol oynayıb.

# "Dayımın adına layiq xidmət edəcəm"



"N" hərbi hissəsində olarkən parkda öz avtomobilinə diqqətlə, həvəslə qulluq göstərən sürücü diqqətimizi cəlb etdi. Elə həvəsli idi ki, yaxınlaşmağım belə onun diqqətini cəlb etmədi. Salamlaşıb təcrübəli sürücünü tanımaq istədik. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Emil Abbasov 1992-ci ildə Ağstafa rayonunda anadan olub. Orta məktəbi bitirdikdən sonra 2010-cu ildə hərbi xidmətə yollanıb. Cəbhə bölgəsində xidmətini başa vurduqdan sonra könüllü olaraq ordu sıralarında xidmətini davam etdirib. 2014-cü ildən isə bu hərbi hissədə xidmət edir. Söhbət əsnasında Emilin Milli Qəhrəmanın ailəsində böyüdüyünü və qardaşının da hazırda "N" hərbi hissəsində gizir kimi xidmətdə olduğunu öyrənirəm.

- Uşaqlıqdan sürücü olmaq istəmişəm - deyir Emil. - Bu peşəni mükəmməl öyrənib, xalqıma xidmət etmək əsas arzumdur. Hər zaman ordu sıralarında olmağı düşünürdüm. Hərbi formanı geyib, şərəflə xidmət etmək ən böyük amalım olub. Orduya, formaya olan sevgi mənə ailədə aşılanıb. Uşaqlığım Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş dayım Novruz Qurbanov və onun silahdaşlarının qəhrəmanlıqlarını dinləməklə keçib. Valideynlərimiz mənə və qardaşıma tez-tez dayımdan danışar, onun kimi vətənpərvər, igid olmağı, Vətənə sədaqətlə xidmət etməyi arzu edirdilər. Dayım haqqında sizə qısaca onu deyim ki, Novruz Əlyullah oğlu Qurbanov Vətənimiz işğala məruz qaldığı ilk dövrlərdə hərbi təlim keçərək torpaqlarımızın müdafiəsinə atılmışdı. O, həmçinin, 1995-ci ilin martında dövlət çevrilişinə cəhdin qarşısının alınmasında fəal iştirak etmişdi. Müstəqilliyimizin qorunub saxlanılması yolunda cəsarət göstərərək 17 mart 1995-ci ildə qəhrəmancasına həlak olmuşdu. Ümummilli liderimiz Heyder Əliyev tərəfindən ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdü. Bu gün mən xoşbəxtəm ki, həm istədiyim peşəyə yiyələnmişəm, həm də bir zamanlar dayımın xidmət etdiyi ordu sıralarında onun davamçısıyam. Hərbi qulluqçu olmağımla fəxr edirəm. Dayımın adına layiq xidmət etməyi özümə borc bilirəm. Hər zaman üzərimə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışıram. Texnikanın sirlərini dərindən öyrənir, ona qulluq etməyi sevirəm. Ordumuzun daha da güclənməsində və inkişafında pay sahibi olmaq üçün əlimdən gələni edirəm.

Belə peşəkar hərbi qulluqçularımızın hesabına ordumuzun gücü daha da artır. Son illər Ali Baş Komandanın orduda keçirdiyi islahatlar sayəsində Azərbaycanın ən müasir texnikaya malik olan ordusu formalaşıb. Məhz Emil kimi peşəsini sevən, texnikasına yaxşı bələd olan peşəkarlar ordumuzun artan gücündən xəbər verir, qələbənin bizimlə olacağına əminlik yaradır.

**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## İki il sonra bütün mülki təyyarələr kosmosdan izlənəcək



Ötən ilin martında yoxa çıxmış Malayziya Hava Yollarına məxsus təyyarənin qalıqları hələ də tapılmayıb. 2017-ci ildən etibarən belə vəziyyət baş verməyəcək. Cenevrədə işə başlayan Ümumdünya Radiorabitə Konfransında bütün mülki təyyarələrin peykdən izlənilməsinə dair razılıq əldə edilib.

Razılaşmaya əsasən, təyyarələrin "ADS-B" siqnallarını fəzaya ötürmək üçün radiotezliklər müəyyənləşdiriləcək. Məlumat avtomatik olaraq peyklər vasitəsilə uçuşlara nəzarət edən yerüstü stansiyalara yönəldiləcək. Beynəlxalq Telekommunikasiya İttifaqı bu sistemin tətbiqinə başlamaq üçün aviaşirkətlərlə birlikdə bir sıra tədbirlər həyata keçirməlidir. Hazırda planetimizdə uçuşların 70 faizinə nəzarət olunmur. Bu, xüsusilə okeanların, səhraların və dağların üzərindəki sahələrə aiddir.

## Alibaba şirkəti 10 saatda 8 milyard dollarlıq satış edib




Çinin Alibaba kompaniyası ölkədə "Yalnız insanlar günü"ndə (Subaylar günü) 10 saat ərzində 8 milyard dollarlıq mal satıb. Çində "Yalnız insanlar günü" ABŞ-da kompaniyaların böyük güzəştlə mal satdıqları "Kiber bazar ertəsi günü"nün analoqudur. Bu, elektron kommersiya bazarı üçün hələlik rekord göstəricidir. Belə ki, satışlar hər il daha da yüksəlir.

Kompaniya 2014-cü ilin analoji dövrü ərzində cəmi 5,8 milyard dollarlıq mal satışına nail olmuşdu. Günün göstəriciləri isə durmadan artmaqda davam edir və ilk 12 saat ərzində satış həcmi 9 milyard dollara çatıb. Kompaniyanın icraçı direktoru Daniel Cjanqın sözlərinə görə, bu gün "Bütün dünya Çinin istehlakçı bumuna şahid olacaq". Müqayisə üçün qeyd edək ki, "ComScore Inc" tədqiqat kompaniyasının məlumatına əsasən, 2014-cü ildə ABŞ-da "Şükranlıq günü" ilə "Kiber bazar ertəsi günü" arasında olan 5 gün ərzində online-satışların həcmi 6,56 milyard dollar təşkil etmişdi.

Analitiklər 2015-ci ildə "Yalnız insanlar günü"ndə Alibaba kompaniyasının satışlarının 13 milyard dollar olacağını gözləyirdilər. İndi isə bu rəqəmlərin gözlənilənləri xeyli üstələyəcəyi məlum olub.

## İranda İŞİD-ə qoşulmaq istəyən 20 terrorçu tutulub



İran İslam Respublikasının İraqla sərhədində 20 terrorçu tutulub. Terrorçular İŞİD qruplaşmasına qoşulmaq üçün qanunsuz yolla sərhədi keçməyə çalışıblar.

Bu barədə İranın təhlükəsizlik naziri Məhəmməd Əlavi Tehranda keçirdiyi mətbuat konfransında məlumat verib. O qeyd edib ki, ölkənin Gülüstan, Sistan, Bəlucistan və Mazandaran əyalətlərində keçirilən xüsusi əməliyyatlar nəticəsində daha 10 terrorçu yaxalanıb.

Nazir qeyd edib ki, Xuzistan əyalətində saxlanılan 14 terrorçu isə İranın müxtəlif şəhərlərində terror aktları törətmək istəyib. Xatırladaq ki, İran terrorçuların ölkəyə daxil olmasının qarşısını almaq məqsədilə sərhədlərinin möhkəmləndirilməsi tədbirlərini həyata keçirir.

## Merlin Monronun portreti 36 milyon dollara satılıb



Merlin Monronun amerikalı rəssam Endi Uorhol tərəfindən çəkilmiş portreti Nyu-Yorkun "Christie's" hərracında satışa çıxarılıb. Amerika pop-art istiqamətinin banisinin "Dörd Merlin" rəsm əsəri hərracda 36 milyon dollara öz alıcısını tapıb.

"Christie's" satış evi pop-art, minimalizm, abstrakt ekspressionizm və konseptualizm kimi istiqamətlər üzrə XX əsrin görkəmli sənət əsərlərinə həsr olunmuş satış həftəsini davam etdirir. Həmçinin, hərracda Luiz Burjuanın monumental "Hörümçək" 28,2 milyon dollara, Lüsyen Freydin "Briqadir" (Endryu Parker-Boulzun portreti) əsəri 34,8 milyon dollara və Co Bredlinin "Üç kişi" əsəri müəllif üçün rekord qiymətə - 3 milyon dollara satılıb. "Müharibədən sonrakı və müasir sənət" hərracında alıcılara 70 lota təqdim olunub ki, onlar da ümumilikdə satış evinə 332 milyon dollar gəlir gətirib.

## İsveçdə növbəti dəfə qaçqınlar üçün nəzərdə tutulan binanı yandırıblar



İsveç KİV-ləri xəbər verirlər ki, böyük yanğın keçmiş anbarın binasını məhv edib. Burada qaçqınlar üçün sığınacaq düzəltmək planlaşdırılırdı.

Bina İsveçin mərkəzində Vermland əyalətində Forsxaqa qəsəbəsində yerləşirdi. Hadisə yerinə operativ surətdə gələn yanğınsöndürənlər briqadası binanı xilas edə bilməyib.

Polisin məlumatına görə, yanğın nəticəsində heç kəsə zərər dəyməyib, istintaq aparılır. İsveç Miqrasiya İdarəsinin məlumatına görə, ölkəyə cari ilin on ayında 120 mindən çox miqrant gəlib. Buna görə də krallıqda qaçqınlar üçün müvəqqəti yaşayış yerlərinin çatmaması müşahidə olunur.

Görünür ki, belə vəziyyət hökuməti çaşdırıb və sağ millətçilər tərəfindən qəzəb doğurub. Məsələn, İsveçdə son ay ərzində qaçqınların yerləşdiyi məntəqələrə təqribən 20 hücum qeydə alınıb. Bununla bağlı hökumət orqanları bu yerlərin ünvanlarını gizli saxlamaq və onların mühafizəsini gücləndirmək qərarına gəliblər.

**AZƏRTAC-ın materialları əsasında**

